Enerji effektivliyi üzrə tədbirlərin maliyyələşdirilməsi üçün müraciət edə biləcək fiziki və hüquqi şəxslər:

- Balansında dövlət mənzil fonduna aid çoxmənzilli yaşayış binaları olan dövlət orqanları (qurumları);
- Dövlət mülkiyyətində olan sosial, təhsil və səhiyyə müəssisələrinin qeyri-yaşayış binaları üzrə idarəedici təşkilatları;
- Qeyri-yaşayış binaları üzrə kommersiya və xidmət fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər;
- Sənaye, kənd təsərrüfatı və nəqliyyat sektorları üzrə təsərrüfat subyektləri;
- Məcburi enerji auditi subyektləri;
- Fərdi yaşayış evlərinin mülkiyyətçiləri;
- Mənzil-tikinti kooperativləri;
- Mənzil mülkiyyətçiləri müştərək cəmiyyətləri;
- Dayanıqlı Enerji və İqlim Fəaliyyət Planlarını təsdiq etmiş bələdiyyələr.



DAHA ƏTRAFLI

ƏLAQƏ

BAŞ OFİS

Azərbaycan Respublikası, AZ1000, Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 84.
Hökumət Evi, giriş 5

TELEFON

(+994 12) 598-16-53/54/55

E-POÇT

office@regulator.gov.az

Azerbaijan Energy Regulatory Agency

ENERJİ EFFEKTİVLİYİ FONDU

Yaşıl gələcəyə dəstək





Enerji effektivliyi

Rəsmi anlayış: Enerji effektivliyi – məhsulun (işin, xidmətin) və ya enerjinin istehlak olunan enerjiyə nisbətidir.

Başqa sözlə, enerji effektivliyi müəyyən bir fəaliyyətin və ya prosesin həyata keçirilməsi üçün istifadə olunan enerjinin miqdarını minimuma endirərək, mal və xidmətlərin keyfiyyətinə və məhsuldarlığa xələl gətirmədən daha yaxşı və ya eyni nəticəni əldə etmək deməkdir.

Fond haqqında



Enerji effektivliyi fondu Azərbaycan Respublikası Prezidentinin 1 mart 2024-cü il tarixli, 13 nömrəli Fərmanı ilə yaradılıb.

Fondun yaradılmasının məqsədi enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqidir.

Enerji effektivliyi fondunun vəsaitinin idarə edilməsini Enerji Məsələlərini Tənzimləmə Agentliyi həyata keçirir.

Fondun vəsaiti hesabına aşağıdakı stimullaşdırıcı tədbirlər həyata keçirilir:

- Güzəştli kreditlərin verilməsi;
- Pilot layihələrin tətbiqinin maliyyələşdirilməsi;
- Qrant və subsidiyaların ayrılması.

Fondun vəsaitlərindən istifadə istiqamətləri:

- Enerji effektivliyi üzrə tədbirlərin və dövlət proqramlarının icrasının dəstəklənməsi;
- Enerji menecmenti sisteminin tətbiqi;
- Ağıllı sayğacların və sistemlərin tətbiqi;
- Kogenerasiya və yüksək effektiv kogenerasiya qurğularının tətbiqi;
- Bərpa olunan enerji mənbələrindən istifadə;
- "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsində nəzərdə tutulan elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi.

Fondun vəsaiti hesabına maliyyələşdirilən enerji effektivliyi tədbirləri:

- Binaların izolyasiyası;
- İstilik sistemlərinin və qazanların təkmilləşdirilməsi;
- Effektiv havalandırma sistemlərinin tətbiqi;
- Yüksək effektivli işıqlandırma sistemlərinin quraşdırılması;
- Enerji effektivliyi yüksək olan avadanlıq və cihazlardan istifadə;
- Kogenerasiya, trigenerasiya qurğularının tətbiqi;
- Enerji menecmenti sisteminin yaradılması (ISO50001);
- Ağıllı enerji və bina idarəetmə sistemləri;
- Aktiv istehlakçılar tərəfindən bərpa olunan enerji mənbələrinin tətbiqi;
- Günəş kollektorlarının tətbiqi;
- Off-grid rejimli bərpa olunan enerji mənbələrinin tətbiqi;
- İstilik nasoslarının tətbiqi.

